**Hüseyn Qədirulla oğlu BAĞIRSOYLU**
i.ü.f.d, dosent
Naxçıvan Dövlət Universiteti
Elmlər doktoru priqramı üzrə dissertant
https://orcid.org/0009-0009-1007-9414

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ DAVAMLI İNKLÜZİV İNKİŞAFI (ŞƏRUR SƏNAYE MƏHƏLLƏSİ)

**Xülasə**

Məqalə Şərur Sənaye Məhəlləsi timsalında Naxçıvan Muxtar Respublikasının Davamlı inklüziv inkişafına həsr edilmişdir. Məqalədə davamlı inklüziv inkişafın nəzəri məsələlərindən bəhs edilir və göstərilir ki, Qloballaşma şəraitində beynəlxalq təşkilatlar, inkişaf etmiş qabaqcıl cəmiyyətlər davamlı inkişafı inklüziv istiqamətdə aparılması ilə əlaqəli bacarıqlarını genişləndirməyə səy göstərirlər. Eyni zamanda qeyd olunur ki, Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi sahələrin davamlı inkişafında qəbul edilən inklüziv siyasət istiqamətində həyata keçirilən optimal və səmərəli qərarların qəbulu mühüm əhəmiyyətə malikdir.

Burada Şərur Sənaye Məhəlləsinin yaradılmasının zəruriliyi və onun iqtisadi əhəmiyyətindən bəhs edilir. Şərur Sənaye Məhəlləsinin məqsəd və vəzifələri göstərilir. Sənaye məhəlləsinin yaradılması özəl sektorun inkişafına dövlət dəstəyinin bariz nümunəsi kimi qiymətləndirilir.

Tədqiqat nəticəsində belə nəticəyə gəlinir ki, Şərur Sənaye Məhəlləsi investisiya layihələrinin reallaşdırılması hesabına sahibkar müəssisələrin davamlı gəlir əldə etməsinə imkan yaradacaq, muxtar respublika iqtisadiyyatının davamlı inklüziv inkişafı üçün təkan verəcəkdir.

**Açar sözlər:** Şərur Sənaye Məhəlləsi, İnklüziv inkişaf, İnfrastruktur, Sənaye, Transaksiyon.

**UOT:** 338
**JEL:** Q42, L98
**DOI:** https://doi.org/ 10.54414/CADH2739

**Giriş**

Müasir dövrdə, iqtisadiyyatın davamlı inkişafı şəraitində inklüziv inkişafın həyata keçirilməsi ölkə iqtisadiyyatı qarşısında duran ən mühüm və əhəmiyyətli məsələlərdən biridir. Davamlı inklüziv inkişaf sivilizasiyanın inkişafı ilə əlaqədar qlobal problem kimi dünyanın qabaqcıl ölkələrinin inkişaf proqramlarına daxil edilib. Qloballaşma şəraitində beynəlxalq təşkilatlar, inkişaf etmiş qabaqcıl cəmiyyətlər davamlı inkişafı inklüziv istiqamətdə aparılması ilə əlaqəli bacarıqlarını genişləndirməyə səy göstərirlər.

Hazırda qabaqcıl dövlətlərin inkişaf kriteriyalarında inklüziv inkişafın mövcudluğu parametrləri əsas inkişaf meyarlarından biri və başlıcası hesab edilir. İnklüziv inkişaf meyarı hər bir sivil cəmiyyətdə həyata keçirilən mükəmməl sosial-iqtisadi islahatlarla birbaşa bağlıdır. Bazar iqtisadiyyatının inkişaf etdiyi müasir dövrdə davamlı inkişafa malik dövlətlərin hamısı inklüziv inkişafın təmin olunması istiqamətində ciddi və inamlı fəaliyyət proqramları qəbul etməkdədirlər.

Həyata keçirilən sosial-iqtisadi proqramlar, innovativ texnologiyaların immitasiya edilərək ölkəyə cəlb olunması, təkrar istehsalın genişləndirilməsi məqsədi ilə istehsal və idarəetmə sahələrinə innovasiyaların tətbiqi ölkədə həyata keçirilən sosial-iqtisadi islahatlarla birbaşa əlaqədardır.

Hazırki dövrdə ölkəmiz davamlı inklüziv inkişaf quruculuğu yönündə inamla irəliləyir və inklüziv cəmiyyət quruculuğu istiqamətində xeyli nailiyyətlər əldə edir. Ölkəmizin qazandığı nailiyyətlər, artıq beynəlxalq təşkilatların qlobal hesabatlarında öz əksini tapmışdır. Sevindirici haldır ki, davamlı inklüziv inkişaf istiqamətində dünya miqyasında ölkəmizin reytinqinin yüksəlməsi Azərbaycanda, o cümlədən, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da sosial-iqtisadi sahələrin düzgün və səmərəli

idarəedilməsi istiqamətində innovativ yeniliklərin tətbiq olunması nəticəsində mümkün olmuşdur[5].

Tədqiqatın nəzəri əsasları

Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi sahələrin davamlı inkişafında qəbul edilən inklüziv siyasət istiqamətində həyata keçirilən optimal və səmərəli qərarların qəbulu mühüm əhəmiyyətə malikdir.

Muxtar respublikada davamlı inklüziv inkişafın başlıca meyarlarından biri digər sosial-iqtisadi sahələrlə yanaşı, ölkədə istehsal olunan ümumi daxili məhsulun struktur vahidlərinin kəmiyyət və keyfiyyətcə göstərici parametrlərinin artımı ilə üzvü bağlıdır. Ümumi daxili məhsulun strukturunda ön mövqedə sənaye məhsullarının istehsal həcminin artımı dayanır. Son illərdə sənayenin innovativ inkişafı istiqamətində muxtar respublikada çox böyük, müxtəlif istiqamətli nailiyyətlər əldə edilmişdir. On il bundan əvvəlki dövrlə müqayisədə muxtar respublikada sənaye məhsullarının istehsal həcmi on dəfədən çox artmış, bu müddət ərzində emal müəssisələrinin fəaliyyəti kenişlənmiş, innovativ texnologiyaya əsaslanan sənaye müəssisələrinin sayı çoxalmış, muxtar respublika aqrar regiondan inkişaf edən sənaye bölgəsi kimi fəaliyyətini davam etdirmişdir.

Muxtar respublikada sahibkarlığın inkişafı ilə əlaqədar həyata keçirilən məqsədyönlü tədbirlər, sahibkarlara göstərilən dəstək və dövlət qayğısı hesabına ümumi daxili məhsulda özəl bölmənin xüsusi çəkisi 92 faizə yüksəlmiş, sənaye məhsulları istehsalının 95-96 faizi isə bu sektorun payına düşmüşdür. Ölkəmizdə dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən birini mütərəqqi texnika və yüksək texnologiyalara əsaslanan sənayenin davamlı inklüziv inkişafı və diversifikasiyası təşkil edir. Muxtar respublikada sənayenin davamlı inkişafını təmin etmək məqsədilə ayrı-ayrı sənaye sahələrinin texnologiyalar əsasında yenilənməsi və qeyri-neft sektorunda, eləcə də, sənayenin qeyri-neft sektorunda ixrac yönümlü sənaye sahələrinin diversifikasiyasının həyata keçirilməsi istiqamətində ardıcıl məqsədyönlü tədbirlər hazırlanır.

Əsrlərdən bəri miras qalan ənənəvi sənaye sahələri ilə yanaşı, müasir dövrün tələblərinə uyğun yeni istehsal sahələri, o cümlədən, sənaye parkları və sənaye məhəllələri kimi prioritet sahələr yaradılır. [8].

Azərbaycan respublikası Prezidentinin "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" 2014-cü il 8 oktyabr tarixli Fərmanı ilə ölkəmizin sənaye əhəmiyyətli müxtəlif ərazilərində sənaye məhəllələrinin yaradılmasına təkan verilmiş və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 13 may tarixli Qərarı ilə təsdiq edilmiş "Sənaye məhəllələri haqqında" nümunəvi əsasnaməyə əsasən ölkəmizdə Sənaye məhəllələri fəaliyyətə başlamışdır[10].

Uğurlu iqtisadi siyasətin davamı olaraq Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun inzibati ərazi bölgüsündə Şərur Sənaye Məhəlləsi inşa edilməyə başlamışdır. Şərur rayonu muxtar respublikanın digər rayonlarına nisbətən iqtisadi cəhətdən daha yaxşı inkişaf etmiş bölgəsi olduğundan, istehsal və sosial infrastruktur obyektləri digər bölgələrə nisbətən burada daha təkmil inkişaf etdiyindən, həmçinin, bu bölgə kifayət qədər əmək ehtiyatları ilə təmin olunduğundan, məhz, bu ərazidə Sənaye Məhəlləsinin yaradılması daha çox perspektivli hesab edilmişdir[9].

Şərur Sənaye Məhəlləsinin yaradılmasında başlıca məqsəd sənayenin müxtəlif sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin dəstəklənməsi, sənaye əhəmiyyətli qeyri-neft sektorunun davamlı inkişafı, sənaye və sənaye təyinatlı xidmət sferalarında fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlığın tərəqqisi üçün optimal şəraitin yaradılması, region əhalisinin istehsal və xidmət sferasında məşğulluğun artırılması və iqtisadi fəal əhalinin mobilliyinin təmin olunmasına şərait yaratmaqdır.

Ümumiyyətlə, "Sənaye Məhəlləsi" anlayışı iqtisadi kateqoriya olmaqla, yaradılan bölgədə əhali tələbatına uyğun, müxtəlif təyinatlı sənaye məhsulları istehsalı və mütərəqqi xidmət metodlarından istifadə etməklə, əhaliyə mədəni xidmət göstərən sahibkarlıq subyektlərinin istifadə etdikləri inzibati ərazi vahididir. Sahibkarlığın inkişafı baxımdan, xüsusi əhəmiyyət daşıyan belə ərazilər inkişaf etmiş infrastruktura malik olduğundan iqtisadi fəaliyyət zamanı təsərrüfat subyektlərinin transaksiyon məsrəflərinin minimuma endirilməsinə, kompakt fəaliyyət göstərdiklərindən korporativ əməkdaşlığın və kooperasiya əlaqələrinin yaxşılaşdırılmasına şərait yaradırlar. [6].

Muxtar respublikanın davamlı inklüziv inkişafı üçün sənaye sahəsində dövlətin makroiqtisadi siyasətinin əsas məqsədi sənaye sahələrində istehsal proseslərinin modernləşdirilməsi, idarəetmə strukturunun beynəlxalq standartların tələbinə uyğun təkmilləşdirilməsi və səmərəli iş metodlarının tətbiqi nəticəsində sənaye məhsulları istehsalının kəmiyyət və keyfiyyətcə artımına nail olmaqdan ibarətdir. Bu məqsədə müvafiq, aşağıdakı vəzifələrin həyata keçirilməsi qənaətbəxş hesab edilə bilər:

- Sənayedə mövcud olan, fiziki və mənəvi cəhətdən aşınmış avadanlıq, maşın və mexanizmlərin yeni, innovativ texnologiya məhsulları ilə ən qısa zamanda əvəzlənməsini təmin etmək;
- SWOT təhlil metodundan istifadə etməklə istehsal olunan sənaye məhsullarının rəqabətqabiliyyətliliyinin artırılmasına nail olmaq;
- ixrac yönümlü sənaye məhsulları istehsalının stimullaşdırılmasını həyata keçirmək;
- sənayedə davamlı inklüziv inkişafın təmin olunması məqsədi ilə bu sahələrə xarici investisiya cəlb olunmasına şərait yaratmaq;
- innovasiya yönümlü fəaliyyətin genişlənməsinə və emal sənayesində müxtəlif fəaliyyət növlərinin yaradılmasına rəvanc verən motivasiya tədbirləri görmək.

Şərur Sənaye Məhəlləsi dövlət mülkiyyəti əsasında yaradılır və dövlət tərəfindən idarə olunduğundan, bu ərazidə formalaşan sənaye sahələrinin kompleks inkişafı dövlət tərəfindən tənzimlənəcəkdir. İqtisadi siyasətin bu istiqamətdə həyata keçirilməsi kiçik sahibkarlığın inkişafına və özəl mülkiyyətdə olan təsərrüfat strukturlarının dinamik artımına şərait yaradacaqdır.

Mütərəqqi innovativ texnologiyalarla, müasir dünya standartları əsasında yaradılan, belə sənaye məhəllələri təkcə iqtisadi baxımdan deyil, eyni zamanda məşğulluğun təmin olunması, yeni, daimi iş yerlərinin açılması, region əhalisinin sosial-iqtisadi tələbatlarının ödənilməsi baxımdan da mühüm sosial əhəmiyyətə malikdir. [3].

Şərur sənaye məhəlləsində region əhalisinin zəruri tələbatına uyğun 6 vahid istehsalat korpusunun yaradılması nəzərdə tutulmuşdur. Burada ilk növbədə müxtəlif çeşidli corab istehsalı, məktəb-ofis ləvəzimatları, müxtəlif növ bitki yağları, kağız-torbalar istehsalı sahələri yaradılması qərara alınmışdır. Qeyd etmək lazımdır ki, həmin məhsullara olan istehlak tələbi hazırda idxal hesabına ödənilir. Sənaye məhəlləsinin fəaliyyətə başlaması ilə analoji məhsulların idxalı azalacaq, rəqabət qabiliyyətinin artması hesabına ixrac potensialı yüksələcəkdir.

Dünyanın qabaqcıl dövlətlərinin çoxillik təcrübəsi, belə deməyə əsas verir ki, cəmiyyətin davamlı iqtisadi inkişafı, əsas etibarı ilə, elm və kapital tutumlu texnologiya proseslərinin iqtisadi tələbatlara istiqamətlənməsi hesabına yaranan innovativ texnologiya əsasında formalaşır.

İnnovasiya yönümlü istehsalda başlıca məqsəd yeni məhsulun yaradılması, onun yeni daşınma üsulları ilə bazara yeridilməsi, mütərəqqi satış metodları ilə reallaşdırılması və kütləvi istehsalın yenidən, yeni texnologiya əsasında davam etdirilməsi olduğundan sənaye məhəlləsində də yeni texnologiyaların cəlb edilməsi hesabına rəqabətqabiliyyətli yeni məhsulun istehsalı və reallaşdırılması istiqamətində sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi nəzərdə tutulur. [9]

Sənaye məhəlləsinin yaradılması özəl sektorun inkişafına dövlət dəstəyinin bariz nümunəsidir. Burada əlverişli infrastrukturların təşkili, mövcud prosedurların maksimum sadələşdirilməsi, cəlbedici güzəştlər mexanizminin tətbiqi, elektron xidmətlərin mövcudluğu, idarəetmə aparatı tərəfindən təqdim olunan xidmətlər və layihələrin özünü ödəmə imkanları daxili və xarici investisiyaların cəlb edilməsi üçün şərait yaradacaqdır.

Şərur Sənaye Məhəlləsinin ərazisində inkişaf etmiş, müasir tələblərə cavab verən infrastruktur, sosial, mədəni, kütləvi iaşə, mühəndis-kommunikasiya obyektləri kompleksi yaradılaraq sahibkarların xidmətinə veriləcəkdir. Əlverişli investisiya mühitinin yaradılması məqsədilə sənaye məhəlləsinin ərazisində investisiyalar üçün vergi və gömrük sahəsində bir sıra güzəştlər də nəzərdə tutulur. Belə ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən sənaye məhəlləsində fəaliyyət göstərəcək rezidentlər yeddi il müddətində mənfəət, torpaq, əmlak vergilərindən, eləcə də, ərazidə istehsal sahələrinin tikintisi, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi və istehsalı məqsədilə idxal olunan texnika, texnoloji avadanlıqlar və qurğular əlavə dəyər vergisindən azad ediləcəkdir. [7].

Şərur Sənaye Məhəlləsində investorlar üçün vaxtaşırı stimullaşdırıcı xidmətlər paketi təqdim olunacaqdır. Sənaye məhəlləsində həyata keçirilən məqsədyönlü tədbirlər xidmət keyfiyyətinin

yüksəldilməsinə sahibkarların informasiya təminatının yaxşılaşdırılmasına şərait yaradacaq, nəticədə sahibkarın iqtisadi fəaliyyəti elmi əsaslara söykənəcəkdir.

**Analiz**

Davamlı və inklüziv inkişaf anlayışları müasir regional siyasətin əsas istiqamətlərindən biri kimi çıxış edir. Bu kontekstdə Naxçıvan Muxtar Respublikasında, xüsusilə Şərur Sənaye Məhəlləsinin yaradılması və fəaliyyəti regionun iqtisadi potensialının gücləndirilməsi, sosial rifahın artırılması və ekoloji tarazlığın qorunması baxımından mühüm rol oynayır.

Bu bölmədə Şərur Sənaye Məhəlləsinin inkişaf modeli iqtisadi, sosial və ekoloji aspektlər üzrə təhlil ediləcək və bölgənin uzunmüddətli dayanıqlı inkişaf perspektivləri qiymətləndiriləcək. Aşağıda təqdim olunan cədvəl bu təhlilin əsas istiqamətlərini sistemli şəkildə əks etdirir.

**Cədvəl 1**

**Şərur Sənaye Məhəlləsinin Davamlı və İnklüziv İnkişaf Aspektlərinin Təhlili**

| Analiz Mezonu | Mövcud Vəziyyət | Müsbət Təsirlər | Məhdudiyyətlər / Çətinliklər |
|---|---|---|---|
| İqtisadi inkişaf | Yeni müəssisələr fəaliyyətə başlayıb, yerli məhsul istehsalı artır | İş yerlərinin yaranması, daxili bazarın güclənməsi | İnvester çatışmazlığı, texnoloji yenilənmədə ləngimə |
| Sosial inklüzivlik | Gənclər və qadınlar üçün məşğulluq imkanları açılıb | Əhalinin sosial aktivliyi artır, regionda balanslı inkişaf təmin olunur | Bəzi təbəqələrin informasiya və təlim imkanlarına məhdud çıxışı |
| Ətraf mühitin qorunması | Sənaye fəaliyyəti nəticəsində ətraf mühitə potensial təsir var | Yerli resurslardan istifadənin nəzarətli olması | Tullantıların idarə olunması və ekoloji monitorinq sistemləri zəifdir |
| İnfrastruktur vəziyyəti | Yol, enerji, su və kommunikasiya şəbəkələri mərhələli şəkildə inkişaf etdirilir | Logistika imkanlarının genişlənməsi, istehsal dövrünün sürətlənməsi | Kənd təsərrüfatı zonalarına tam inteqrasiya olunmaması |
| Texnoloji səviyyə | Orta səviyyəli texnologiyalar tətbiq olunur | İstehsal keyfiyyətinin yüksəlməsi, yeni bazarlara çıxış imkanı | Rəqəmsallaşma səviyyəsi aşağı, innovasiyaya çıxış məhduddur |
| Regionlararası əməkdaşlıq | Yerli məhsullar digər bölgələrə çıxarılır, əlaqələr qurulur | Regionun iqtisadi inteqrasiyası sürətlənir | Xarici sərmayələrin regiona cəlb olunması hələ də məhduddur |

Yuxarıdakı cədvəldə Şərur Sənaye Məhəlləsinin davamlı və inklüziv inkişaf parametrləri sistemləşdirilmişdir. İqtisadi baxımdan bölgədə sənaye subyektlərinin təşkili və daxili bazarın aktivləşdirilməsi diqqət çəkir. Bu, həm məşğulluğun artmasına, həm də yerli brendlərin formalaşmasına şərait yaradır.

Sosial inklüzivlik aspektindən isə cins, yaş və sosial təbəqədən asılı olmayaraq məşğulluq imkanlarının yaradılması önəmlidir. Lakin maariflənmə və resurslara çıxışda bərabərsizlik müəyyən çətinliklər yaradır.

Ekoloji baxımdan isə sənaye fəaliyyəti ilə bağlı risklər mövcuddur, lakin yerli resursların rasional istifadəsi və təbii mühitin qorunması üçün tədbirlər genişləndirilməlidir.

İnfrastruktur və texnoloji səviyyə isə sənaye məhəlləsinin uğurla fəaliyyət göstərməsi üçün vacib şərtlərdəndir. Nəqliyyat, enerji və informasiya texnologiyalarının davamlı təkmilləşdirilməsi regionun rəqabət qabiliyyətini artıracaqdır.

Nəticə etibarilə, Şərur Sənaye Məhəlləsi Naxçıvanın davamlı və inklüziv inkişaf modelinə uyğun bir nümunə olaraq çıxış edir. Amma bu inkişafın uzunmüddətli və tarazlı şəkildə davam etməsi üçün ekoloji, texnoloji və sosial sahələrdə əlavə islahatlara və investisiyalara ehtiyac var.

**Cədvəl 2**

**Sosial Resursların Səfərbərliyi və İnsan Kapitalı İnkşafı**

| Mezon | Mövcud Vəziyyət | İmkanlar | Məhdudiyyətlər / Risklər |
|---|---|---|---|
| İşçi qüvvəsinin strukturu | Əsasən yerli əhali, orta ixtisas və ali təhsilli mütəxəssislər azlıq təşkil edir | Yerli əhalinin işlə təminatı, sosial sabitliyin artması | Peşəkar işçi çatışmazlığı, ixtisaslaşmış təlim mərkəzlərinin olmaması |
| Peşə təhsili və təlimlər | Peşə təhsili imkanları məhduddur | Peşə hazırlığı proqramları vasitəsilə gənclərin aktivləşdirilməsi | Müasir proqram və resurs çatışmazlığı |
| Əmək şəraiti | Orta səviyyədə əmək şəraiti mövcuddur | İş mühiti yaxşılaşdırılarsa daha çox insan cəlb oluna bilər | Qeyri-rəsmi məşğulluq, əmək hüquqlarının tam təmin olunmaması |
| Gender bərabərliyi | Qadınların sənaye sektorunda iştirakı nisbətən zəifdir | Qadınlara yönəlik təşviq proqramları ilə iştirak arta bilər | Stereotiplər və sosial maneələr |

**Cədvəl 3**

**İnvestisiya Cəlbi və İnnovasiya Potensialı**

| Mezon | Mövcud Vəziyyət | İmkanlar | Çətinliklər / Təhlükələr |
|---|---|---|---|
| Dövlət dəstəyi | Sənaye məhəlləsi dövlət proqramları çərçivəsində təşviq edilir | Subsidiyalar, vergi güzəştləri ilə investisiya cəlbi mümkündür | Büdcə imkanları məhdud olduqda dəstək davamlı olmaya bilər |
| Xarici investisiya | Xarici investorların iştirakı çox azdır | Hüquqi şərait yaxşılaşdırılsa investor marağı arta bilər | Siyasi və iqtisadi risklər, tanıdılmama problemi |
| İnnovasiya infrastrukturu | Startap və texnopark kimi strukturlar yoxdur və ya inkişaf etməmişdir | Rəqəmsal platformalar və yerli texnoparkların yaradılması imkanı | İT resurslarının çatışmazlığı, innovasiya mühitinin zəifliyi |
| Tədqiqat və inkişaf (R&D) | Universitet-sənaye əməkdaşlığı zəifdir | Elmi-tədqiqat institutları ilə inteqrasiya imkanları | Akademik və praktiki əlaqələrin olmaması |

İkinci cədvəl insan kapitalı və sosial potensialın sənaye məhəlləsinin inkişafına nə dərəcədə töhfə verdiyini göstərir. Peşə hazırlığının zəifliyi, işçi qüvvəsinin ixtisaslaşma səviyyəsinin aşağı olması və gender balansının pozulması ciddi problemlərdir. Amma bu sahələrdə ediləcək hər bir inkişaf, Şərur Sənaye Məhəlləsinin uğurunu uzunmüddətli əsasda təmin edə bilər.

Üçüncü cədvəl isə investisiya və innovasiya mühitini əhatə edir. Dövlətin təşviq proqramları ilkin mərhələdə rol oynasa da, xarici investorların regiona marağının artırılması üçün hüquqi və institusional baza gücləndirilməlidir. İnnovasiya potensialı isə hələki zəif olsa da, inkişaf etdirilə biləcək əsas sahələrdəndir.

Yuxarıdakıları ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, Şərur Sənaye Məhəlləsi investisiya layihələrinin reallaşdırılması hesabına sahibkar müəssisələrin davamlı gəlir əldə etməsinə imkan yaradacaq, muxtar respublika iqtisadiyyatının davamlı inklüziv inkişafı üçün təkan verəcəkdir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Milli Elmlər Akademiyası (AMEA). (2021). Naxçıvanın sosial-iqtisadi inkişafı: tarixi və müasir baxış. Bakı.
2. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. (2022). Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı (2019–2023). Bakı.
3. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası. (2022). Regional inkişaf və dayanıqlı iqtisadiyyat siyasəti. Bakı: "Elm və Təhsil" nəşriyyatı.
4. Dünya Bankı. (2020). Inclusive and Sustainable Industrial Development in Emerging Regions. Washington D.C.
5. Əhmədov N. Daim inkişafda olan Naxçıvan sənayesi. Bakı. Xəbər. 2020, 11iyun, №92, s

6. Əliyev, N. (2020). “İnnovasiya və sənaye siyasətində regional yanaşmalar.” İqtisadiyyat və Biznes Jurnalı, №3, s. 45–52.

7. Hacıyev İ.Davamlı və dinamik inkişaf. Respublika, 2020, 26 yanvar, №16,s.6

8. Hacıyev İ.Naxçıvan MR-in ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan, “Əcəmi” nəşriyyatı poliqrafiya birliyi.s 272.

9. İsmayılov K. Naxçıvanda böyük enerji potensialı yaradılıb. Respublika,-2021, 10 iyun №119, s.17

10. Qasımov E.Naxçıvan MR iqtisadiyyatının ərazi təşkili və inkişafının coğrafiyası.Bakı, “Təhsil”,-2011, s.192.

11. Qasımova, L. (2019). “Sosial inklüzivlik və məşğulluq: Regionlarda gender balansı məsələləri.” Sosial Elmlər Jurnalı, №2, s. 30–38.

12. Quliyev, A. və Məmmədov, E. (2021). Davamlı inkişaf: nəzəriyyə və təcrübə. Bakı: Azərbaycan Universiteti Nəşriyyatı.

13. Naxçıvan Dövlət Universiteti. (2023). Naxçıvan iqtisadiyyatında sənayeləşmə prosesləri və onların sosial təsirləri üzrə tədqiqat. Naxçıvan.

14. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi. (2023). Şərur Sənaye Məhəlləsinin fəaliyyəti və perspektivləri üzrə hesabat. Naxçıvan.

15. United Nations Development Programme (UNDP). (2021). Sustainable Development Goals Report – Regional Perspectives. New York.

**Гусейн Кадирула оглы БАИРСОЙЛУ**
кандидат философских наук, доцент
Нахчыванский государственный университет
Докторант по программе доктора наук
ORCID: https://orcid.org/0009-0009-1007-9414

## УСТОЙЧИВОЕ ИНКЛЮЗИВНОЕ РАЗВИТИЕ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ (ШАРУРСКИЙ ПРОМЫШЛЕННЫЙ РАЙОН)

**Резюме**

Статья посвящена устойчивому инклюзивному развитию Нахчыванской Автономной Республики на примере Шарурского промышленного района. В статье рассматриваются теоретические вопросы устойчивого инклюзивного развития и показано, что в условиях глобализации международные организации, развитые передовые общества пытаются расширить свои навыки, связанные с инклюзивным развитием. В то же время отмечается важность принятия оптимальных и эффективных решений в направлении инклюзивной политики устойчивого развития социально-экономических сфер Нахчыванской Автономной Республики.

Обсуждается необходимость создания Шарурского промышленного района и его экономическое значение. Указаны цели и задачи Шарурского промышленного района. Создание промышленного района считается ярким примером государственной поддержки развития частного сектора.

В результате исследования делается вывод, что реализация инвестиционных проектов в Шарурском промышленном районе позволит предпринимателям получать устойчивый доход, даст импульс устойчивому инклюзивному развитию экономики автономной республики.

**Ключевые слова:** Шарурский промышленный район, инклюзивное развитие, инфраструктура, промышленность, трансакционный рассход.

**Huseyn Qadirulla oglu BAGIRSOYLI**
PhD in Philosophy, Associate Professor
Nakhchivan State University
Doctor of Sciences Program Doctoral Candidate
ORCID: https://orcid.org/0009-0009-1007-9414

## SUSTAINABLE INCLUSIVE DEVELOPMENT OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC (SHARUR INDUSTRIAL NEIGHBORHOOD)

**Summary**

The article is dedicated to the Sustainable Inclusive Development of the Nakhchivan Autonomous Republic on the example of the Sharur Industrial District. The article discusses the theoretical issues of sustainable inclusive development and shows that in the context of globalization, international organizations, developed advanced societies are trying to expand their skills related to inclusive development. At the same time, it is noted that the adoption of optimal and effective decisions in the direction of inclusive policy in the sustainable development of socio-economic spheres in the Nakhchivan Autonomous Republic is important.

It discusses the need for the establishment of the Sharur Industrial District and its economic significance. The goals and objectives of the Sharur Industrial District are indicated. The establishment of the industrial district is considered a clear example of state support for the development of the private sector.

As a result of the study, it is concluded that the implementation of investment projects in the Sharur Industrial District will allow entrepreneurs to generate sustainable income, will give impetus to the sustainable inclusive development of the economy of the autonomous republic.

**Keywords:** Sharur Industrial District, Inclusive Development, Infrastructure, Industry, Transaction.